# Həftəlik
# *Bülleten*



**129**
**13 Fevral 2026**

Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

**ATMİA**

info@atmia.az www.atmia.az

**Azərbaycan Bolqarıstanla şəhərsalma sahəsi üzrə əməkdaşlığı müzakirə edib.**
Azərbaycan və Bolqarıstan arasında şəhərsalma, ərazi planlaşdırılması, infrastrukturun inkişafı və memarlıq sahələrində əməkdaşlıq imkanları müzakirə edilib. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə istinadən xəbər verilir ki, bu müzakirələr komitə sədri Anar Quliyevin Bolqarıstana səfəri çərçivəsində paytaxt Sofiya şəhərində regional inkişaf və ictimai işlər naziri İvan İvanov ilə görüşündə aparılıb. A. Quliyev Azərbaycan ilə Bolqarıstan arasında mövcud olan dostluq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsində uğurla inkişaf etdiyini vurğulayaraq, ikitərəfli əlaqələr baxımından qardaşlaşmış şəhərlər institutunun genişləndirilməsi prosesinin davam etdirilməsinin və ortaq layihələrin həyata keçirilməsi istiqamətində fəaliyyətin əhəmiyyətini qeyd edib. Nazir İ. İvanov isə öz növbəsində Azərbaycan ilə əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını bildirərək, xüsusilə şəhər mühitinin dayanıqlı inkişafı və infrastruktur layihələrinin icrası istiqamətində birgə təşəbbüslərin önəmini vurğulayıb. Tərəflər Bolqarıstanın Veliko Tırnovo şəhərində salınacaq "Şuşa parkı" layihəsinin iki ölkə arasında mədəni və diplomatik münasibətlərin daha da dərinləşməsinə töhfə verəcəyini bildiriblər.



## WUF13-də "Baku Call to Action"ın qəbul edilməsi planlaşdırılır.

WUF13-ün yekunları üzrə mənzil və davamlı şəhər inkişafı məsələlərinə xüsusi diqqət göstərilməsini nəzərdə tutan "Baku Call to Action"ın qəbul edilməsi planlaşdırılır. Bu barədə BMT-nin Məskunlaşma Proqramının kommunikasiya üzrə direktoru Katerina Bezqaçina 17-22 may 2026-cı il tarixlərində Bakıda keçiriləcək davamlı urbanizasiya üzrə BMT-nin ən böyük qlobal konfransı olan WUF13-ə həsr olunmuş onlayn brifrinqdə bildirib. "Forumun yekunu WUF13-də qəbul ediləcək "Baku Call to Action" - mənzil və dayanıqlı şəhər inkişafı məsələlərinə prioritet əhəmiyyət verilməsi çağırışı olan sənəd olacaq. Biz milli hökumətləri, şəhərləri, yerli hakimiyyət orqanlarını və digər maraqlı tərəfləri bu sənədə töhfə verməyə, həllər təqdim etməyə və mənzil təminatı sahəsində konkret addımları dəstəkləməyə çağırırıq," - o qeyd edib. O əlavə etdi ki, WUF13 çərçivəsində yeni urbanistik gündəlik üzrə nazirlik görüşü keçiriləcək, burada tərəqqi nəzərdən keçiriləcək və sonrakı həyata keçirmənin prioritetləri müəyyən ediləcək, həmçinin 2026-cı ilin iyulunda Dayanıqlı İnkişaf Məqsədi 11 "Dayanıqlı şəhərlər və yaşayış məntəqələri"nin yerinə yetirilməsinə qiymət veriləcək. Bezqaçina vurğulayıb ki, Dünya Urbanistik Forumunun maraqlı xüsusiyyətlərindən biri WUF13-də təqdim olunacaq "Urban Expo" - qlobal həllər platformasıdır. "Bu, bütün dünyanın mənzil sahəsində müxtəlif modelləri və həlləri nümayiş etdirmək imkanıdır. İştirakçılar öz məhsullarını və ən yaxşı təcrübələrini təqdim edəcəklər," - o deyib.

WORLD URBAN FORUM
THIRTEENTH SESSION
BAKU, AZERBAIJAN | 17-22 MAY 2026

**Evlərin və torpaqların sənədləşdirilməsi üçün mühüm qərar imzalandı.**

Daşınmaz əmlakla bağlı qərar imzalanıb. Bununla da daşınmaz əmlakın qeydiyyatı zamanı ən çox rast gəlinən maneələrdən biri aradan qalxıb. İndiyə qədər vətəndaşın təqdim etdiyi sənədlə torpağın kadastr məlumatları arasında kiçik bir uyğunsuzluq olduqda, proses dayandırılır və vətəndaş aylarla məhkəmə və ya digər qurumlarda vaxt itirirdi. Yeni qaydaya əsasən, əgər sənədlərdə torpağın təyinatı fərqli göstərilibsə, qeydiyyat orqanı 15 iş günü müddətində yerquruluşu sənədlərini təhlil edərək araşdırma aparacaq. Əgər məlumatların doğruluğu təsdiqlənərsə, əmlak qeydiyyata alınacaq və kadastrda lazımi düzəlişlər elə dövlət tərəfindən ediləcək. Qiymətləndiricilər cəmiyyətinin idarə heyətinin sədri Vüqar Oruc bildirib ki, bu addım həm də ölkə üzrə illərdir həllini gözləyən sənədsiz evlər probleminin həlli üçün bir keçid mərhələsi hesab olunur. Çünki hazırda sənədləşdirilməyən xeyli sayda fərdi yaşayış evi məhz torpağın kateqoriyasındakı uyğunsuzluqlar səbəbindən müəmmalı statusda qalıb. Qeyd edək ki, qərar artıq qüvvəyə minib. Bu isə o deməkdir ki, vətəndaşların sənəd toplamaq və ya texniki xətalara görə imtina almaq yükü xeyli azalacaq.



## Dövlət-özəl tərəfdaşlığının iqtisadi inkişafda rolu.

Dövlət-özəl tərəfdaşlığı Azərbaycanda dayanıqlı iqtisadi inkişafı dəstəkləyən və sosial-innovativ layihələrin səmərəli icrasına imkan verən mühüm alətə çevrilir. Dövlət-özəl tərəfdaşlığı - dövlət xidmətlərinin göstərilməsi, infrastrukturun yaradılması və idarə edilməsi üçün dövlətlə özəl sektor arasında bağlanan müqaviləyə əsaslanan əməkdaşlıq modelidir. Dövlət-özəl tərəfdaşlığı çərçivəsində ilk pilot layihə - dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalıdır. 2025-ci il sentyabrın 22-də Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "ACWA Power" ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi arasında "Dəniz suyunun duzsuzlaşdırılması zavodunun layihələndirilməsi, tikintisi və istismarı üzrə müqavilə" imzalanıb. 2026-cı il üzrə Azərbaycanda dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçiriləcəyi təsdiq edilmiş layihələr siyahısında "Bakı şəhərində elmi texnoloji parkın inşası və idarə edilməsi" (2-ci və 3-cü mərhələ), "Lənkəran rayonunda bərk məişət tullantılarının idarə edilməsi", "Heyvan cəsədləri və bioloji tullantıların utilizasiya mərkəzlərinin inşası", "Hövsan aerasiya (ÇSTQ) qurğusunun təmiri və çirkab suların təkrar emalı ilə bağlı yeni qurğuların quraşdırılması", "Kəlbəcər rayonunda turizm-rekreasiya zonasının yaradılması", "Yük avtonəqliyyat parklarının yaradılması" layihələri yer alır. 2027-ci il üzrə reallaşdırılması nəzərdə tutulan layihələr üçün isə su və tullantıların idarə olunması, ekologiya, nəqliyyat və daşımalar, turizm və s. sahələr müəyyən edilib.



**Bakıda yeni tunel tikiləcək, plana düşən evlər söküləcək.**

Bakıda, “20 Yanvar dairəsi” və “Şamaxinka”da tıxacı azaltmaq məqsədilə yeni tunel inşa ediləcək. Bu barədə Avtomobil Yolları Dövlət Agentliyindən bildirilib. Qeyd olunub ki, “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı”na əsasən, Yasamal rayonu, Məhəmməd Xiyabani küçəsində tunel inşa olunacaq. Yol-nəqliyyat eksperti Ərşad Hüseynovun sözlərinə görə, inşa ediləcək tunel tipli yol ötürücüsü Bakının ən böyük nəqliyyat düyünlərindən biri olan “20 Yanvar dairəsi” və “Şamaxinka” ərazisindəki tıxac problemini kökündən həll etməyə yönəlmiş strateji layihədir. Layihənin icrası ilə bağlı tunelin keçəcəyi ərazidə, tikinti zonasında yerləşən fərdi yaşayış evlərinin sökülməsi də nəzərdə tutulub. Atıq ərazidə yaşayan sakinlərə evlərinin köçürülməsi və kompenassiya məsələləri ilə bağlı rəsmi bildirişlər də təqdim edilib. Qeyd edək ki, tunelin inşası ilə həm də ərazidəki ictimai nəqliyyatın hərəkət intervalının da yaxşılaşdırılmasına hesablanıb. Lakin layihənin icrasına hansı tarixdə başlanacağı hələlik məlum deyil.



**Tikinti materialı üçün xammallardan birinin istifadəsi qadağan olunur.**

Ölkəmizdə mülki dövriyyədə istifadəsi qadağan olunan əşyaların reyestri genişləndirilir. Bu dəyişiklik parlamentin 26 dekabr tarixli plenar iclasının gündəliyinə daxil edilən "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Qanun layihəsində nəzərdə tutulub. Təklif olunan layihəyə görə, Mülki Məcəllənin tələblərinə uyğun olaraq, asbest və onun tərkib hissəsi olduğu materiallar mülki dövriyyədən çıxarılan əşyalar kateqoriyasına daxil ediləcək. Qeyd edilib ki, sözügedən mineral tərkibli maddə uzun müddət sənayenin müxtəlif istiqamətlərində (o cümlədən sement, kimya, izolyasiya, kağız istehsalı və s.) və tikinti sektorunda geniş tətbiq olunub. Dövlət Statistika Komitəsinin rəqəmlərinə istinadən, 2023-cü il ərzində ölkəyə 591 ton asbest və 30 238 ton asbestli plitələr, 2024-cü ildə isə müvafiq olaraq 1 045 ton asbest və 27 634 ton həmin tərkibli materiallar gətirilib. Asbest tərkibli şiferlər respublikadakı ümumi dam örtüklərinin 29 faizini, yəni təqribən 190 milyon m² sahəni təşkil edir. Ölkə üzrə bu materialın illik istehlakı 2.6 milyon m² (1.5 milyon vərəq) həcmindədir və hazırkı bazarın 15-20 faizi məhz şiferin payına düşür. Nəticə etibarilə, beynəlxalq təcrübəni əsas götürərək hazırlanan qanun layihəsində asbest və tərkibində asbest olan materialların mülki dövriyyədən çıxarılmış əşyalar siyahısına daxil edilməsi təklif olunur. Qanunun tətbiqinə 2027-ci il iyulun 1-dən başlanılması nəzərdə tutulur.



**Bakının daha bir ərazisində qəzalı evlər söküləcək – Yerində park salınacaq.**

Bakının Nəsimi rayonu ərazisindəki qəzalı evlər söküləcək.

Mirəli Qaşqay 34 ünvavanında 50-dən çox ailənin yaşadığı 1-2 mərtəbli evlərə artıq baxış keçirilib. Sakinlərin sözlərinə görə, aidiyyəti qurumun əməkdaşları ərazidəki mənzillərin ölçülərini də götürüblər Lakin sakinlər mənzillərin ölçülərinin evin iç divarlarından hesablanmasından narazılıqlarını bildiriblər.

İlkin ehtimala görə, ərazidə park salınacaq.

Mənzillərin hər kvadratmetrinə düşən məbləğlə bağlı isə hələ heç nə deyilməyib. Söküntü ilə bağlı Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bildirilib ki, qeyd edilən ünvan qəzalı binaların siyahısına daxil edilib və yaxın zamanda bina sakinləri ilə görüş keçirilərək ətraflı məlumat veriləcək.



**Sementin satış qiyməti bahalaşdı – YENİ QİYMƏT.**

Son bir neçə gün ərzində Azərbaycanda inşaat materialları satılan mağazalarda sementlərin qiyməti bahalaşıb. Mağazalarda satılan bir çox marka sementlərin qiymətində bahalaşma müşahidə olunur. Xususilə də, “Norm” və “Holcim” markalı sementlərin satış qiyməti bahalaşıb. Belə ki, qiymət artımı 10-60 qəpik arasında olub. Bəzi mağazalar qiymətləri çox bahalaşdırsa da, elə mağazalar var ki, minimum qiymət artımı edib. “Arkoz 300” və “Arkoz 400” markalı sementlərin də topdan alış qiymətinin 75 qəpik bahalaşdığını deyirlər. Satış qiymətlərinin artımının da minimum 75 qəpikdən başlayacağı bildirilir. Elə marka sementlər var ki, onların qiymət bahalaşmayıb. Satıcıların sözünə görə, “Azbentonit” markalı sementin qiyməti hələ bahalaşmasa da, yaxın günlərdə bu sementin də qiymətinin artacağı gözlənilir.  Bəzi satılıcılar deyir ki, sementin topdan qiymətləri bir-neçə nüddətdir qalxsa da, onlar qiymətləri son zamanlar qaldırmağa başlayıblar. Elə satıcılar var ki, hələ də, hazırda topdan alınan qiymətə satış həyata keçirir.



**Hörmətli sahibkarlar,**

Tikinti və interyer sektorunun aparıcı markaları Bursada bir araya gəlir!
Məkan: Bursa, Türkiyə
Tarix: 23–26 aprel
Xarici ziyarətçilər üçün üstünlüklər:
3 gecə oteldə qonaqlama (səhər yeməyi daxil)
Hava limanı – otel – hava limanı transferi
Otel – sərgi mərkəzi – otel transferi
VIP giriş kartı

Keramika, mətbəx təmiri və tikinti materialları üzrə ən son yeniliklər.
Yeni təchizatçılar, birbaşa əlaqə və biznes imkanları.
Xidmət haqqı 120 AZN olmaqla və gediş-gəliş biletləri şəxsin özü tərəfindən qarşılanmaqla həyata keçiriləcək.

**Ətraflı məlumat üçün:** 010 250 03 24



**Sərginin adı: BUILDEXPO AFRICA - ETHIOPIA 2026**
**Tarixlər: 22-24 fevral 2026-cı il,**
**Məkan: Millenium Hall, Addis Ababa (Efiopiya)**
Beynəlxalq Tikinti, Tikinti, Bələdiyyə Avadanlıqları, Təbii Daş, Maşın və Avadanlıqlar Sərgisi

**Sərginin adı: HUISHOUDBEURS 2026**
**Tarixlər: 21-28 fevral 2026-cı il,**
**Məkan: RAI Beynəlxalq Sərgi və Konqres Mərkəzi, Amsterdam (Hollandiya)**
Ev və dekorasiya sərgisi. Hər il yeni brendlər, məhsullar, seminarlar, fəaliyyətlər.

**Sərginin adı: CERAMIKA EXPO 2026**
**Tarixlər: 24 - 26 fevral 2026 -cı il,**
**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**
Ceramika Expo, keramika və tikinti kimyəvi maddələri istehsalının potensialını nümayiş etdirəcək Keramika Plitələr və Hamam Mebelləri üzrə Beynəlxalq Ticarət Sərgisidir.

**Sərginin adı: STONE POLAND 2026**
**Tarixlər: 24 - 26 fevral 2026 -cı il,**
**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**
Daş İşləri ticarət sərgisi. Daş Sərgisi Polşada və bütün Mərkəzi və Şərqi Avropa regionunda Daş İşləri sektoru ilə əlaqəli aparıcı şirkətləri, texniki mütəxəssisləri və praktikləri bir araya gətirməyi hədəfləyir.

**"BAKI ŞƏHƏR ƏSASLI TİKİNTİ VƏ TƏMiR" MMC TENDER ELAN EDİR.**

"Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC (VÖEN – 1702563281) açıq tender elan edir. Tenderin predmeti Bakı şəhərinin Nəsimi, Yasamal, Xətai, Suraxanı və Sabunçu rayonları ərazisində dövlət mənzil fonduna aid binaların təmiri işlərinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əlaqələndirici şəxs: Xələf Şıxəliyev -Mühəndis
Email: ahmed.mmmdov@gmail.com
Əlaqə telefonu: +994 60 612 15 27



**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ TENDER ELAN EDİR.**

Azərbaycan Memarlıq və İnşaat Universiteti açıq tender elan edir. Tenderin predmeti Universitetin 1 saylı tədris korpusunda qapı və pəncərələrin cari təmiri işləridir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Sarvan Səfərov, satınalma və təchizat şöbəsinin müdiri
Email: sarvan.safarov@azmiu.edu.az
Əlaqə telefonu: +994 12 510 64 31



**"BAKI ŞƏHƏR ƏSASLI TİKİNTİ VƏ TƏMİR" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"Bakı Şəhər Əsaslı Tikinti Və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Tenderin predmeti Bakı şəhərinin, Nərimanov, Səbail, Nizami, Binəqədi, Xəzər, Qaradağ, Pirallahı rayonları ərazisində dövlət mənzil fonduna aid binaların təmirinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Xələf Şıxəliyev, Mühəndis
Email: ahmed.mmmdov@gmail.com
Əlaqə telefonu: +994 50 612 15 27



**"AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT EHTİYATLARI AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda ADEA-nın Gəncə filialında anbarların döşəmələrinin əsaslı təmiri işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Asif Əliyev, Böyük mütəxəssis
Email: procurement@dea.az
Əlaqə telefonu: +994 12 210 01 95 (2287)



**AZƏRBAYCAN RESPUBLİKASI QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ MƏNZİL İSTİSMAR DEPARTAMENTİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Qaçqınların Və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti açıq tender elan edir.
Elanda Bakı şəhəri və Biləsuvar rayonunda salınmış məcburi köçkün qəsəbələrində fərdi yaşayış evlərinin və mənzillərinin təmiri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fariz Abbasov, Sektor müdiri
Email: farizabbasov23@gmail.com
Əlaqə telefonu:+994 12 430 15 30





**www.atmia.az**